AZƏRBAYCAN www.azerbaijan-news.az

# Vətəndaş təəssübkeşliyi və alim cəsarətinin örnəkləri

## *Tanınmış alim-tədqiqatçı, publisist Teymur Əhmədovun seçilmiş əsərlərinin tam külliyyatı beş cilddə nəşr olunub*




Filologiya elmləri doktoru, professor Teymur Əhmədovun “NURLAR” nəşriyyat-poliqrafiya mərkəzində nəfis tərtibatla beş cilddə çap olunmuş “Seçilmiş əsərlər”i onun yaradıcılığının bütün dövrlərini əhatə edir.

İndiyədək alimin 40-dək monoqrafiya və müxtəlif səpkili kitabları, yüzlərlə elmi-kütləvi, publisistik yazıları, otuz adda elmi-ədəbi, ictimai-siyasi nəşrləri oxuculara təqdim edilib. Elmi kadrların hazırlanmasında, monoqrafik tədqiqatların elmi redaktəsində Teymur Əhmədovun əməyi səmərəliliyi və məhsuldarlığı ilə seçilir. Təsadüfi deyil ki, o, respublikamızın tanınmış elm, ədəbiyyat xadimləri tərəfindən “yorulmaz tədqiqatçı”, “cəsarətli publisist”, “iztirablı-bəhrəli ömür sahibi”, “iki əsrin salnaməçisi”, “ruhən təmiz adam” kimi səciyyələndirilir.

Yenicə çapdan çıxmış “Seçilmiş əsərlər”in birinci cildi Nəriman Nərimanovun həyat və yaradıcılığına həsr edilib. Teymur Əhmədovun Bakı, Moskva, Sankt-Peterburq, Həştərxan, Tbilisi şəhərlərinin kitabxana və arxivlərindən əldə etdiyi yeni materiallar, faktlar əsasında hazırladığı “Nəriman Nərimanovun dramaturgiyası” adlı namizədlik dissertasiyası onun aspirantura illərində apardığı gərgin elmi axtarışlarının bəhrəsidir. Monoqrafiya hələ 1966-cı ildə görkəmli elm xadimləri, akademiklər tərəfindən yüksək qiymətləndirilib.

İmperiya ideoloqlarının Nəriman Nərimanovu “millətçi”, “antibolşevik” kimi qələmə verərək onun xalqın milli şüurunun oyanışındakı xidmətlərini ictimai-siyasi fikir tariximizdən silib atmağa çalışdıqları bir dövrdə Teymur Əhmədovun “Nəriman Nərimanovun dramaturgiyası”, “Nəriman Nərimanov”, “Nəriman Nərimanovun yaradıcılıq yolu” adlı monoqrafiyaları əsl alim cəsarətinin, ziyalılıq əxlaqının, vətəndaşlıq təəssübkeşliyinin ən yaxşı örnəkləri olub.

Nəşrin ikinci cildini ədəbi-bədii fikir tariximizə yeni nəzər kimi də dəyərləndirmək olar. Bu cilddə Abbasqulu ağa Bakıxanov, İsmayıl bəy Qutqaşınlı, Mirzə Şəfi Vazeh, Mirzə Ələkbər Sabir, həmçinin Qılman İlkin, Zəlimxan Yaqub və daha neçə-neçə görkəmli söz xiridarlarının yaradıcılığı bir daha zamanın süzgəcindən keçirilərək təhlil edilib.

Bu cilddə, həmçinin İranda yazıb-yaradan şairlərimizin, söz sərraflarının yaradıcılığı tədqiqata cəlb olunub. Cənubi Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Əndəlib Qaracadaği, Mirzə Əbdürrəhim Talıbov, Mirzə Əli Möcüz, Şəhriyar, Hökümə Bülluri, Həbib Sahir və Aşıq Hüseyn Cavanın ömür yoluna, yaradıcılığına işıq salan, onları bir daha Azərbaycan oxucusuna yaxından tanıdan bu yazıların hər birində Teymur Əhmədovun mövzuya həssas münasibəti özünü ilk baxışda büruzə verir. Bunun başlıca səbəbi yəqin ki, Teymur müəllimin Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunda Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinə rəhbərlik etməsi ilə bağlıdır.

Yaradıcılığının böyük bir hissəsini Nəriman Nərimanov irsinin tədqiqinə həsr edən Teymur Əhmədovun seçilmiş əsərlərinin üçüncü cildində yenidən bu böyük siyasi xadim və mütəfəkkirin yaradıcılıq yoluna işıq salınır. Müəllif Nəriman Nərimanovun dramaturgiyası ilə yanaşı, publisistikası, ictimai-siyasi və ədəbi fəaliyyəti, ədəbi-tənqidi görüşləri barədə söz açır.

Kitabın dördüncü cildini vərəqlədikcə göz önündə müstəqillik illərində demokratik mətbuatımızın inkişafına təkan verən, “Əkinçi” ənənələrinə sadiqlik nümayiş etdirən, məqsədi, məramı bütövlükdə xalqa xidmət olan, onun üçün çalışan, çarpışan bir peşəkar qələm adamının obrazı canlanır. Teymur Əhmədovun çoxşaxəli fəaliyyətində həyat və yaradıcılığına dönə-dönə müraciət etdiyi Əli bəy Hüseynzadə, Mirzə Cəlil Məmmədquluzadə, Üzeyir bəy Hacıbəyli kimi düşüncə korifeylərinin dəst-xətti, düşüncə tərzi özünü göstərir.

Teymur müəllimin mətbuatımızın inkişafı sahəsində xidmətləri həqiqətən də təqdirəlayiqdir. Bunu “Ata yurdu”, “Vətən səsi”, “Vətən həsrəti”, “Yeni fikir”, “Hikmət” qəzetlərinin baş redaktoru, “Elturan” jurnalının məsul redaktoru kimi gördüyü işlər əyani surətdə təsdiqləyir. O, hazırda “Respublika” qəzetinin və “Füyuzat” jurnalının baş redaktoru kimi fəaliyyətini davam etdirir.

Sonuncu cilddəki “Ömrün üç zirvəsi: alim, redaktor, şəxsiyyət” yazısı Teymur Əhmədovu vətənpərvər ziyalı, fədakar alim və gözəl publisist kimi xarakterizə edir. Bu cilddə yer alan “Mənim həyatım” sərlövhəli yazısı bir insanın, yəni müəllifin ömür yolundan bəhs etsə də, ümumilikdə ibrətamiz həyat dərsi təsiri bağışlayır, oxucuda yaşamaq və layiqli vətəndaş kimi yetişmək üçün lazımi keyfiyyətlər aşılayır. Bu cilddə, həmçinin Teymur müəllim jurnalist, alim olmaqdan daha çox özünü yazıçı-publisist kimi təqdim edir. İnamla demək olar ki, səmimi hisslərdən yoğurulmuş bu hekayə və oçerklərin hər biri olduqca təsirlidir. Burada, həmçinin müəllifin ssenariləri, məqalələri, ədəbi qeydləri yer alıb. “Vedibasarın qanlı-qadalı günləri (1918-1919-cu illər)” tarixi povestində xalqımızın başına gətirilən müsibətlərə biganə qala bilməyən vətənpərvər ziyalının qələmə aldığı tarixin unudulmayan dəhşətləri əksini tapıb.

“Seçilmiş əsərlər”i vərəqlədikcə Teymur Əhmədovun milli mətbuatımızdakı tarixi ənənələrin yaşadılması, bu ənənələrin işığında mətbuatımızın müasir ruhlu tribunaya çevrilməsində əvəzsiz xidmətlərinin şahidi olursan. Beşcildliyə yazılmış “Ön söz” əvəzi yazılar Teymur müəllimi daha yaxından tanımağa bələdçilik edir. Bu yazıların müəllifləri akademiklər Budaq Budaqov, Cəmil Quliyev, professor Xeyrulla Məmmədov, filologiya üzrə fəlsəfə doktorları Allahşükür Qurbanov, Elçin Cabbarov və Şəfəq Nasirdir.

**AZƏRTAC**